*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 sentyabr 2017-ci il № 72 (2189) Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

# Siz qalib gələcəksiniz!



*Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyir. Gözləyir ki, o əmri qələbəylə yerinə yetirsin, ata-baba torpaqlarımızı düşmən tapdağından azad etsin, illərdir sinəmizi dağlayan el-oba həsrətinə son qoysun.*

Azərbaycan əsgərlərinin görüşünə tələsirik. Mərdlik görməyə, cəsarət görməyə, bizə könül xoşluğu verəcək Vətən sevgisini görməyə. Bu sevgi səngərlərdə daha əzəmətlə görünür. Bu sevgi səngərləri yaxın vaxtlarda dövlət sərhədlərimizə köçürəcək!..

Şəxsi heyətlə iş üzrə bölmənin zabiti Ruslan Novruzov əsgərlərin yüksək döyüş ruhunda olduğunu və uğurlu xidmət etdiklərini deyir:

- Əsgərlərimiz öhdələrinə düşən məsuliyyəti dərk edir, ayıqsayıq xidmət aparırlar. Düşməni daim nəzarətdə saxlayırlar. Hər birinin döyüş hazırlığı, döyüş ruhu, taktiki bilikləri yüksək səviyyədədir. Təhkim olunan silahlardan istifadə etməyi mükəmməl bacardıqları kimi, silahlarına vaxtlı-vaxtında qulluq edir, döyüşə daim hazır vəziyyətdə saxlayırlar.

... Döyüş postunda başqa bir ab-hava var. Vətən qoxusu var səngərlərdə. Qəhrəmanlıq var, igidlik, mərdlik var. Vətənə sevgi, sadiqlik, düşmənə qəzəb duyulur burada. Bir də gözlərdə həsrət var. Bu həsrət torpaq həsrətidi. Bu həsrət tezliklə dinəcək. Buna hamı kimi mən də əminəm. O gün yaxındadır. Bu əminliyi bizə yaşadan Azərbaycan əsgəridir.

...Çavuş Akif Süleymanov postda hər şeyin qaydasında olduğunu deyir. 2007-ci ildən ordu sıralarında xidmət edir. Bizi postun ərazisi ilə tanış edir. Təhlükəli istiqamətləri, torpağın yaşıllaşdığı, gül-çiçəyin ləçəklədiyi bu fəsildə qap-qara əraziləri göstərir. "İşğalda olan torpaqlarımızdır, ermənilər yandırıblar. Bol məhsul verən torpaqlar istidən qovrulur. İnşallah, tezliklə o torpaqları işğaldan azad edəcəyik. Yenidən o torpaqlar şumlanacaq, əkilib-becəriləcək. Torpağa yeni can gələcək, yaşıllaşacaq, çiçək açacaq", - Akif deyir.

...Baxdıqca heyrətlənirsən. Torpaqlar bizə, biz torpaqlarımıza susamışıq. İllərdir həsrətimizlə yaşayırıq. Aprel döyüşlərində bu həsrətə az da olsa su çiləndi. Qələbəmiz bir daha sübut etdi ki, Azərbaycan Ordusu istənilən an düşməni məhv etməyə qadirdir və torpaqlarımızın bir qarışını belə işğalda qoymayacaq...

Səngərlər qala kimi keçilməzdir. Bu qalanı yaradan hər bir əsgər mərddir, qorxmazdır, vətənpərvərdir. Döyüş postunda dayanır, mərdliklə xidmət edir, onlara güvənənləri qoruyurlar. Əllərini sıxıram...

Döyüş növbəsində dayanan əsgər Murad Şıxməmmədov hərbi xidmətə Quba rayonundan çağırılıb. Atıcıdır. Bir ildən çoxdur xidmət edən təcrübəli əsgər hərbi xidmətinin uğurla davam etdiyini deyir:

- Əsgər olmaq, Vətən borcunu layiqincə yerinə yetirmək, döyüş bölgəsində səngərdə dayanmaq, bir gənc üçün böyük sevincdir. Mən dövlətimiz və ordumuzla fəxr edirəm. Azərbaycan xalqı rahat və firavan yaşasın, mən və mənim kimi əsgərlər düşmən qarşısında mətin dayanmışıq. Onlar bir addım belə irəli gələ bilməz. Təxribata cəhd etdikləri anda onları məhv edərik.

**(Ardı 6-cı səhifədə)**



Azərbaycan Prezidentinin BMT-dəki qətiyyətli çıxışından ruhlanan müharibə veteranları və qazilər cəbhə bölgələrinə səfər ediblər

5-ci səhifədə



Vətənin bir parçası

5-ci səhifədə



"Anaların arzusunun əsgəriyik"

7-ci səhifədə



Hərbçilərimizin dünya çempionatında yarışları yekunlaşıb

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Belarusun və İtaliyanın ölkəmizdəki səfirləri ilə görüşüb



Sentyabrın 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, mütəxəssislərdən ibarət qrupların qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Tərəflər, həmçinin yaxın vaxtlarda Azərbaycanın Müdafiə nazirinin Belarusa planlaşdırılan səfərinin detallarını və keçiriləcək görüşlərdə hərbi əməkdaşlıq sahəsində baxılacaq məsələləri də müzakirə ediblər.

* * *

Sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari ilə görüşüb.

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə İtaliya arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu bildirən diplomat Azərbaycan-İtaliya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib. Səfir, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həllinin tərəfdarı olduğunu bildirərək, İtaliyanın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini xüsusi qeyd edib.



Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edilib, ölkələrimizin Silahlı Qüvvələri arasında, eləcə də NATO proqramları çərçivəsində hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri nəzərdən keçirilib, regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasında dediyi fikirlər şəxsi heyətə əhatəli çatdırılır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı beynəlxalq arenada geniş əks-səda doğurub. Dünya mediasının səhifələrində də şərh olunan proqram xarakterli çıxış aparıcı dövlətlərin rəhbərlərinin, siyasi ekspertlərin müzakirə obyektinə çevrilməklə yanaşı, Azərbaycan xalqına, həmçinin Silahlı Qüvvələrimizə, Vətənin çiçəklənməsi naminə zəhməti olan hər bir kəsə tezislər kimi ünvanlanıb.*

Bu tezislərdən irəli gələn tapşırıqları şəxsi heyətə çatdırmaq məqsədilə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsində tədbir keçirildi.

Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri açıq elan edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarını, milli təhlükəsizliyini özündə əks etdirən qətiyyətli və cəsarətli çıxışı barədə geniş məlumat verdi. Eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində nü-



mayiş etdirilən ikili standartlara və Azərbaycanın prinsipial mövqeyinə toxundu: "Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standartlara əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Bütün bunlar sübut edir ki, beynəlxalq hüquq normaları səviyyəsində Azərbaycanın ərazi bütövlüyünün tanınmasına, Ermənistanın işğalçı dövlət kimi qəbul edilməsinə baxmayaraq münaqişə həll edilməmiş qalır. Bu da o deməkdir ki, əgər məsələ beynəlxalq hüquq normaları çərçivəsində həll olunmayacaqsa, Azərbaycan Ordusu aprel döyüşlərində olduğu kimi bir daha öz gücünü düşmənə göstərəcək."

Nazir müavini Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təlimlərin yekunlarına həsr olunmuş geniş kollegiya iclasında Ali Baş Komandanın çıxışı barədə fikirlərinə də toxundu: “Cənab nazir kollegiya iclasında bildirdi ki, Ali Baş Komandanın çıxışından irəli gələn tələblər Silahlı Qüvvələrin gündəlik fəaliyyətində rəhbər tutulmalıdır. Cənab nazir çıxışı zamanı birlik, birləşmə, hərbi hissə komandirlərinə, xüsusi təyinatlı təhsil müəssisələrinin rəislərinə, Müdafiə Nazirliyinin idarə, xidmət rəislərinin nəzərinə çatdırdı ki, Ali Baş Komandanın Dağlıq Qarabağ problemi ilə əlaqədar səsləndirdiyi fikirlər ordumuz üçün tapşırıq, bütün şəxsi heyət üçün birbaşa əmrdir. Ali Baş Komandanın çıxışı bütün şəxsi heyət arasında müzakirə olunub aidiyyəti üzrə çatdırılmalıdır. Bu göstərişləri əsas tutaraq şəxsi heyət üzrə zabitlər, döyüş fəalları, ictimai-siyasi hazırlıq üzrə qrup rəhbərləri, ideoloji otaq şuralarının üzvləri bu məsələdən irəli gələn tapşırıqların həllinə cəlb olunacaqlar.”

Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani bildirdi ki, cənab Prezident çıxışında ötən il baş vermiş aprel döyüşlərinə toxunaraq, rəsmi İrəvana çox ciddi mesajlar ünvanlayıb. "Keçirdiyimiz uğurlu əməliyyatlardan danışan Prezident bildirdi ki, Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır, əks təqdirdə Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq. Prezident açıq şəkildə bəyan etdi ki, Azərbaycan hər an torpaqlarını işğaldan azad etmək üçün hərbi əməliyyatlara start verə bilər. Aprel əməliyyatları da onu sübut etdi ki, torpaqlarımızı erməni terrorçularından azad etməyimiz üçün Azərbaycan Ordusuna bir neçə gün kifayət edər: “Bu fikirləri söyləməklə ölkə Prezidenti gündən-günə güclənən, qüdrətlənən, qarşısına qoyulan döyüş, hücum tapşırıqlarını yerinə yetirməyə hazır olan Azərbaycan Ordusuna böyük dəstək nümayiş etdirdi. Bu fikirlər Azərbaycan Ordusuna inamdan irəli gəlir və Ali Baş Komandanımızın Azərbaycan əsgərinə inamının təzahürüdü. Cənab Prezidentin diqqət və qayğısı sayəsində bu gün Azərbaycan Ordusunun maddi-texniki bazası daha da möhkəmlənir, Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi, döyüş ruhu yüksəlir. Gəlin etiraf edək ki, əgər orduda, əsgərdə ruh, vətənpərvərlik hissi yoxdursa, onun mənəvi-psixoloji hazırlığı aşağı səviyyədədirsə, ona ən qiymətli, ən müasir, ən yeni silah və texnikanı həvalə etsən də, sabah döyüş meydanında uşaq oyuncağından başqa bir şey olmayacaq".

**(Ardı 3-cü səhifədə)**

# Nyu-Yorkda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü olub

*Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş məclisinin 72-ci sessiyası çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa), Əndrü Sxofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşikin iştirakı ilə Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanla görüşüb.*

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ətraflı fikir mübadiləsi aparılıb. Bununla bağlı Ermənistan, Azərbaycan və həmsədrlər tərəfindən atılmalı olan addımlar nəzərdən keçirilib.

Görüş əsnasında ATƏT-in Minsk Qrupu həmsədrlərinin təklifinə uyğun olaraq, Ermənistan və Azərbaycan prezidentlərinin görüşünün keçirilməsi ilə əlaqədar məsələlər müzakirə olunub.

Nazir Elmar Məmmədyarov münaqişənin həlli üzrə substantiv danışıqların davam etdirilməsi üçün həmsədrlər tərəfindən səsləndirilən bir sıra maraqlı təkliflərin Azərbaycan tərəfindən dəstəkləndiyini bildirib. O, həmçinin münaqişənin tezliklə həllinə nail olmaq üçün Azərbaycanın məntiqli danışıqlara daim hazır olduğunu bir daha vurğulayıb.

# Azərbaycan Prezidentinin BMT-dəki qətiyyətli çıxışını Silahlı Qüvvələrin şəxsi heyəti böyük ruh yüksəkliyi ilə qarşılayıb

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxışı Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunu, vətənpərvərlik hissini və işğal edilmiş torpaqlarımızın tezliklə azad ediləcəyinə inamını daha da artırıb.*



Bununla əlaqədar birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir, şəxsi heyət Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqlarını bəyan edir.

"N" hərbi hissəsində tədbir başlamazdan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq qarşısına gül dəstələri qoyulub.

Əsgər klubunda keçirilən tədbirdə Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək sentyabrın 20-də Nyu-York şəhərində keçirilən BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını tarixi və proqram əhəmiyyətli bir sənəd adlandırıb.

Azərbaycan Prezidenti İlham Əliyev həmin sessiyada Ermənistanın Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu 25 ildən çoxdur ki, işğal altında saxladığını iştirakçıların nəzərinə çatdıraraq bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. "Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib. Ermənistanın Xocalıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir."

BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə, eləcə də bir çox beynəlxalq qurumların buna oxşar qərar və sənədlər qəbul etməsinə baxmayaraq Ermənistan bunların heç birini icra etmir.

Azərbaycan Prezidenti qətiyyətlə bildirib ki, Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar olsun ki, o buna görə cəzalandırılmır. Bu, ikili standartlara əsaslanan yanaşmadır və bu yanaşma qəbuledilməzdir. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmədiyinə, Ermənistan diktaturasına heç bir beynəlxalq sanksiya tətbiq edilmədiyinə etiraz edən Azərbaycan Prezidenti bu siyasətə son qoyulmasını tələb edib. Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkar 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandırılacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor, millət vəkili Elman Nəsirov möhtərəm Prezidentimizin qətiyyətli, cəsarətli və sərt çıxışının nəinki ölkəmizdə, eləcə də beynəlxalq aləmdə böyük əks-sədaya səbəb olduğunu, Ermənistanın isə bundan vahiməyə düşdüyünü qeyd edib.



Millət vəkili Elman Nəsirov Azərbaycan Prezidentinin bu qətiyyətli fikrinin maddi-texniki bazası günü-gündən möhkəmlənən, peşəkarlığı, döyüş qabiliyyəti daha da artan qüdrətli Azərbaycan Ordusuna arxalandığını xüsusilə vurğulayıb və böyük əminliklə bildirib ki, Azərbaycanın ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, təmin ediləcək, torpaqlarımız işğaldan azad ediləcək və qaçqınlarımız yurd yerlərinə qayıdacaqlar. "Çünki Azərbaycanın güclü ordusu, orduya daim arxa-dayaq olan qədirbilən xalqımız, müdrik Prezidentimiz, qətiyyətli Ali Baş Komandanımız vardır."

Hərbi qulluqçular adından çıxış edən polkovnik Mehman Kərimov Azərbaycan Prezidentinin bu çıxışının bütün ordumuz üçün bir əmr olduğunu və şəxsi heyətin bu əmrə hər an hazır olduqlarını böyük inamla deyib.

Tədbirin sonunda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi Əməkdar İncəsənət Xadimi Abdulla Qurbaninin şeirləri əsasında "Komandanın əmrinə biz hazırıq hər zaman!" ədəbi-musiqili kompozisiyasını təqdim edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 72-ci sessiyasında dediyi fikirlər şəxsi heyətə əhatəli çatdırılır

**(Əvvəli 2-ci səhifədə)**



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev bildirdi ki, Azərbaycan Prezidentinin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışı və orada toxunduğu tezislərin ikisinin üzərində ayrılıqda dayanmaq istəyir: "Birinci tezis - bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir. Ali Baş Komandan cənab İlham Əliyevin bu fikri həm də beynəlxalq hüququn tələblərinə əsaslandırılıb. Belə ki, BMT Nizamnaməsinə əsasən, işğala məruz qalan dövlət ya təkbaşına, ya da digər ölkələrlə birlikdə hərəkət edərək, ərazi bütövlüyünü bərpa etmək hüququna malikdir.

Göründüyü kimi, Prezident çıxışı zamanı torpaqlarımızın hələ də erməni işğalı altında qalması faktını xüsusi qabardaraq həm Ermənistandakı xunta rejiminin iç üzünü açdı, həm də bu rejimə havadarlıq edən qüvvələri hədəf alaraq dünya ictimaiyyətinə önəmli mesajlar ünvanladı.

Cinayətkarın özünün, həm də onun havadarlarının əhatəsində Azərbaycan Prezidentinin bu fikri söyləməsi təkcə Azərbaycanın iqtisadi və hərbi qüdrətinə söykənmir, eyni zamanda Azərbaycan Prezidentinin çox böyük cəsarətinə söykənir."

General-mayor Rasim Əliyev Prezident İlham Əliyevin dediyi ikinci tezisə də toxundu: "Ermənistanın təcavüzü davam edərsə, BMT-nin xartiyasına uyğun olaraq ölkəmiz öz ərazilərini qoruyacaq, lazım gələrsə təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yerində otuzduracaq. Ali Baş Komandan BMT-dəki çıxışında dedi ki, işğala və erməni separatçılarının cəbhə bölgəsindəki təxribatlarına son qoyulmasa, Azərbaycan Ordusu 2016-cı ilin aprelini yenidən təkrarlayacaq. Bu fikrin BMT kimi beynəlxalq qurumun tribunasından səslənməsi xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq aləm elə düşünməsin ki, biz əbədiyyətə qədər işğalla barışacağıq".

Çıxışının sonunda general-mayor Rasim Əliyev keçirilən tədbirin mahiyyətinə də münasibət bildirdi: " Bugünkü tədbirimizin mahiyyəti ondan ibarətdir ki, möhtərəm Prezidentimiz Silahlı Qüvvələrə inanır və Müdafiə Nazirliyi qarşısında müvafiq tapşırıqlar qoyur. Müdafiə Nazirliyinin qarşısında duran əsas vəzifə torpaqlarımızın işğaldan azad olunmasıdır. Ancaq Ali Baş Komandanın çıxışına əsaslanaraq cənab nazirin "Prezidentin Dağlıq Qarabağ problemi ilə əlaqədar səsləndirdiyi fikir - ordumuz üçün tapşırıq, bütün şəxsi heyət üçün birbaşa əmrdir" - fikri bizi bu məsələnin üzərində düşünməyə vadar edir. Ona görə də bir daha tapşırıqlarımızı şəxsi heyətə yetərincə çatdırmalı və diqqət mərkəzində saxlamalıyıq."

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır

General-mayor Rasim ƏLİYEV,
Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi tədbirlər planına əsasən, həyata keçirilən islahatlar nəticəsində ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığı kifayət qədər yüksəlib.*

Elmi əsaslarla aparılan ordu quruculuğu yeni mərhələdə inkişaf edir. Silahlı Qüvvələrimiz müasir döyüş texnikaları və silahlarla təmin edilib. Hərbi hissələr üçün inzibati binalar inşa olunub, şəxsi heyətə bütün gərəkli şərait yaradılıb. Ali Baş Komandanın tələb və göstərişləri əsasında həyata keçirilən irimiqyaslı təlimlər Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığını tamamlayır. Ən müasir silah və texnika ilə təmin edilən, hərtərəfli təchizata malik olan Azərbaycan Ordusunun Cənubi Qafqazda güclü ordu olduğunu beynəlxalq hərbi təşkilatlar və ekspertlər də etiraf edirlər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğunun bundan sonra daha intensiv inkişaf etdiriləcəyini, dövlətin hərbi potensialının artırılacağını daim bəyan edir: "Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir... Bizim ordumuz bizim qürurumuzdur... Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq...".

Dünya ictimaiyyəti, dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin illərdən bəri davam etdiyini də görür, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli, dönməz mövqeyini də dərk edir: torpaqlarımız işğaldan azad edilməlidir! İstər Ermənistan, istərsə də dünyanın aparıcı dövlətləri BMT-nin məlum dörd qətnaməsi icra edilməzsə, bu qətiyyətin nə ilə nəticələnəcəyini də yaxşı bilir. Dövlətimizin rəhbərliyi bu münaqişənin həlli istiqamətində öz mövqeyini 2016-cı ilin aprel döyüşlərindən sonra bir daha bildirmişdi: "Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun". Bu bəyanat Azərbaycanın bəşəri dövlət olduğunun təsdiqi idi.

"Sülh istəyən dövlət müharibəyə də hazır olur" tezisi Azərbaycan üçün birmənalı şəkildə prioritetdir. Azərbaycan müharibəyə hazırdır. Silahlı Qüvvələrimizin şəxsi heyəti Ali Baş Komandanın əmrini qələbəylə başa çatdırmağa qadirdir.

Torpağı işğal olunmuş dövlət münaqişənin sülh yolu ilə həllinə tərəfdardır, işğalçı dövlət yox. Azərbaycan Respublikasının Prezidenti danışıqların davam etdirilməsini istəyir, Ermənistan rəhbərliyi danışıqlardan yayınmağa, indiki status-kvonu saxlamağa çalışır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bunun Azərbaycan dövlətçiliyi üçün yolverilməz olduğunu qətiyyətlə bildirib: "Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəkdir". Bu qətiyyət birmənalı şəkildə torpaqlarımızın işğaldan azad ediləcəyinə verilən zəmanət, Ermənistana, onun havadarlarına verilən bəyanatdır. Ermənistan bu bəyanatdan nəticə çıxarmalıdır.

Prezident, Ali Baş Komandan cənab İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxışında da Azərbaycanın münaqişənin sülh yolu ilə həllinə sadiq olduğunu, işğalçı Ermənistanın regionu daha ağır təhlükələrə sürüklədiyini bildirərək deyib: "Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır". Dövlətimizin rəhbəri bu yüksək tribunadan onu da bildirib ki, Emənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq. Bu qətiyyət dövlətimizin, xalqımızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə qəti münasibətdir. Azərbaycan Prezidentinin çıxışı münaqişənin təxirəsalınmadan, ölkəmizin ərazi bütövlüyü qorunmaqla həlli istiqamətində tələb kimi dəyərləndirilir. Şübhəsiz ki, bu çıxış Silahlı Qüvvələrimizin şəxsi heyətinin döyüş ruhunu daha da yüksəldəcəkdir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin bu çıxışı Ermənistan rəhbərliyini ciddi düşündürməlidir. Onlar bilməlidir ki, sülh danışıqlarından yayınmaqla, indiki status-kvonu saxlamağa cəhd göstərməklə müharibə üçün şərait yaradır. Müharibə isə çətin durumda olan Ermənistanın daha da ağır itkilərə məruz qalması ilə nəticələnəcəkdir. Erməni əsgərinin Azərbaycan əsgəri ilə müqayisədə çox zəif olduğunu erməni əsilli hərbi ekspertlər də etiraf edirlər.

2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun döyüş hazırlığının səviyyəsini, şəxsi heyətin mənəvi ruhunu, ordu ilə xalqın birliyini, torpaqlarımızı işğaldan azad etməyə qadir olduğumuzu təsdiqləmişdi. Prezident cənab İlham Əliyev bu məqamları ümumiləşdirərək demişdi: "Bu, bir daha dövlətimizin, ordumuzun gücünü göstərir... Biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxışı da məhz bu bəyanatın məntiqi davamıdır: "Sülh danışıqları baş tutmasa, Azərbaycan torpaqlarını döyüşlə azad edəcək. Ordumuz buna qadirdir!.."

Azərbaycan Prezidenti ikili standartlara görə beynəlxalq təşkilatları böyük cəsarətlə günahlandırdı, "despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğrayan, uzun illər ərzində beynəlxalq hüququ pozan, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı dövlətlərinin bəyanatlarına məhəl qoymayan" Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul olunmasını israrla tələb etdi, "təcavüzkara münasibətdə bu cür siyasətin ədalətsizlik olduğunu" bildirdi. Bu cür cəsarətli, qətiyyətli çıxış azərbaycançılıq mövqeyinin, böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasətinə sədaqətin təzahürüdür.

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında "Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik" deyən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin BMT-nin məlum tədbirində səsləndirdiyi "Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır" qətiyyətli bəyanatı tələb kimi qəbul edilməlidir. Bu tələb təkcə Ermənistana deyil, beynəlxalq təşkilatlara da ünvanlanıb...

Azərbaycan Ordusunun hər əsgəri, hər zabiti üçün bir ucalıq var - Vətən ucalığı. Hər biri üçün bir müqəddəslik var - Vətən. Hər biri üçün bir and var - Vətən andı. Bunlar kifayət qədər yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusunun həm də mənəvi-psixoloji hazırlığının təsdiqidir. Bu ordu Azərbaycan Prezidentinin hər bir əmrini hər an yerinə yetirməyə hazırdır!..

# "Taktiki səviyyəli hərbi mülki əlaqələr" mövzusunda kurs keçirilir

*Sentyabrın 25-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Taktiki səviyyəli hərbi mülki əlaqələr" mövzusunda təlim kursu başlanıb.*



Tədbiri açıq elan edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Aydın Eyyubov qonaqları salamlayaraq bildirdi ki, Azərbaycan ilə Türkiyə Silahlı Qüvvələri arasında ikitərəfli əməkdaşlıq sahəsində planlaşdırılan tədbir xüsusi əhəmiyyətə malikdir: "Bu kursa cəlb olunan zabitlər istənilən hadisə və təbii fəlakətlər zamanı mülki təşkilatlar və dinc əhali ilə əlaqələrin qurulması prosesini öyrənəcəklər. Ona görə də kursun keçirilməsi istər nəzəri, istərsə də praktiki cəhətdən faydalıdır."

Türkiyə Silahlı Qüvvələrinin Sülh Naminə Birgə Təlim Mərkəzinin nəzdindəki Mobil Təlim Qrupunun Azərbaycanda olan nümayəndə heyətinin rəhbəri polkovnik Melih Şimşeker təmsil etdiyi qurumun fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verdi:

"Türkiyə Silahlı Qüvvələrinin Sülh Naminə Birgə Təlim Mərkəzinin Mobil Təlim Qrupu NATO-nun 1994-cü ilin yanvarında keçirilən iclasında qəbul edilən qərarlar əsasında 29 iyun 1998-ci ildə yaradıldı. 12 fevral 1999-cu ildə NATO tərəfindən tanınan Mobil Təlim Qrupu böyük öndər Mustafa Kamal Atatürkün "Yurdda sülh, Cahanda sülh" şüarını əsas götürərək yarandığı gündən 19 ölkədə 2595 iştirakçının qatıldığı 440 kurs, 71 mobil təlim komandası və 14 seminar təşkil edib. Bugünkü kurs isə Türkiyə-Azərbaycan xalqlarının qardaşlığı, ikitərəfli münasibətləri baxımından xüsusi əhəmiyyət daşıyır. Kursda təmsil olunan bütün iştirakçılara uğurlar arzulayır və belə tədbirlərin əməkdaşlığımıza töhfələr verməsini diləyirəm".

Kurs müddətində Türkiyə Silahlı Qüvvələri Sülh Naminə Birgə Təlim Mərkəzinin Azərbaycanda təmsil olunan heyəti - polkovnik Melih Şimşeker, mayor Bülent Onay və kapitan Adil Sarıgedik tərəfindən müxtəlif mövzulara dair mühazirələr oxunacaq, eləcə də işçi qruplarda müzakirələr və fikir mübadilələri aparılacaq.

Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən olan hərbi qulluqçuların iştirakı ilə keçirilən kurs sentyabrın 29-dək davam edəcək.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Prezidentinin BMT-dəki qətiyyətli çıxışından ruhlanan müharibə veteranları və qazilər cəbhə bölgələrinə səfər ediblər





*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışı Qarabağ müharibəsi veteranlarının, döyüşlərdə sağlamlıqlarını itirən qazilərin və şəhid ailələri üzvlərinin işğal edilmiş torpaqlarımızın tezliklə azad ediləcəyinə inamını daha da artırıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Hacıqabul və Bərdə rayonlarından olan bir qrup keçmiş döyüşçü cəbhə bölgələrinə səfər edib.

Ali Baş Komandanın BMT kürsüsündən cəsarətlə səsləndirdiyi "Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkar 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandırılacaq" fikrini bayraq edən ordudan tərxis olunmuş Vətən övladları döyüş mövqelərində olub, şəxsi heyətlə görüşüb və aprel zəfərini təzələməyə hər an hazır olduqlarını bildiriblər.

Atası və qardaşı ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Razi Süleymanov, şəhid qardaşı, Kəlbəcər uğrunda döyüşlərin iştirakçısı Rizvan Qasımov, Qarabağ müharibəsi əlilləri Məmməd Əhmədov, İntiqam Abdulov, Çernobıl veteranı Bəylər Qarayev, aprel döyüşlərində göstərdiyi igidliyə görə yeni təsis edilmiş Azərbaycan Respublikasının "Şücaətə görə" medalına layiq görülmüş Rizvan Qarayev və başqaları möhtərəm Prezidentimizin bu çıxışının nəinki ordu üçün, eləcə də Qarabağ müharibəsinin hər bir veteranı, qazisi və ehtiyatda olan bütün hərbi qulluqçular üçün də əmr olduğunu qeyd ediblər.

Qonaqlar ön səngərdə əsgərlərin xidmət şəraiti, onların istifadəsində olan silah, texnika və döyüş vasitələri ilə tanış olub, şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin yüksəkliyinin şahidi olub, onlarla bir yerdə nahar edib, xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya hədiyyələr təqdim ediblər.



Veteranlar düşmənlə təmas xəttində xidmət keçən döyüşçüləri əmin ediblər ki, aprel döyüşləri yenidən təkrarlanacaqsa, onlar da xalqımıza qələbə sevinci bəxş edəcək igidlərin sıralarında olacaqlar.

Qrupu müşayiət edən Müdafiə Nazirliyinin zabiti Abdulla Qurbani ölkə rəhbərinin BMT-dəki çıxışından ruhlanaraq cəbhə bölgəsinə gəlmiş və səmimi söhbətləri, xatirələri və respublikamızın ərazi bütövlüyünün təmin olunmasına çağırışları ilə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə səy göstərən keçmiş döyüşçülərə minnətdarlıq etmiş və gənclərin vətənpərvərlik tərbiyəsində, orduya hazırlanmasında bundan sonra da onlara uğurlar arzulamışdır.

Görüşlər digər hərbi hissələrdə də davam edib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 sentyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 152 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cavahirli, Qaraqaşlı, Kəngərli, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

### Nümunəvi xidmət

# Vətənin bir parçası

*Vətənin keşiyini çəkmək, hər an döyüşə hazır olmaq, qəhrəmanlıq göstərmək Azərbaycan əsgərinin xarakteridir. Hərbi xidmət Vətən qarşısında müqəddəs borc və şərəfli vəzifədir.*



Hərbi hissələrdən birində komandirlərin nümunəvi xidmətindən razılıqla söz açdığı mühafizə taboru fəxri qarovul bölüyünün əsgəri İbrahim Məmmədovla söhbətləşdim.

Hərbi xidmətə Cəlilabad rayonundan çağırılıb. Xidmətdə olduğu on dörd ay ərzində komandirlərinin və əsgər yoldaşlarının hörmətini qazanıb. Nümunəvi əsgərimiz ordu həyatının həyat məktəbi olduğunu xatırlatmaqla deyir: "Sevə-sevə verdiyimiz bu müqəddəs borc hər birimizi fiziki və mənəvi-psixoloji cəhətdən formalaşdırır, möhkəmləndirir, mətinləşdirir. Məhz buna görə hərbi xidməti kişilik məktəbi adlandırırlar."

Bu bir həqiqətdir ki, hərbi xidmətin müsbət təsirləri bir müddət sonra, mülki həyatda hiss edilir.

İbrahim ilk dəfə əsgər formasını geyinəndə daxilində çox böyük qürur, məsuliyyət hissi yaranıb. Əsgər qürurla deyir ki, uşaqlıqdan bəri qurduğum xəyallar gerçəkləşmişdi. "Komandirlərimiz sıra hazırlığı məşğələləri keçirlər. Döyüş vərdişlərinə və hərbi biliklərə mükəmməl yiyələnməyimiz üçün diqqət və qayğılarını əsirgəmirlər. Günlər, həftələr keçdikcə səriştəm daha da artır. Hərbi vəzifəmin öhdəsindən layiqincə gəlməyə çalışıram və Ali Baş Komandanın verəcəyi hər bir əmrə həmişə hazıram. Komandirlərimin etimadını qazandığıma görə ailəmə təşəkkür məktubu göndərilməsi mənə ruh yüksəkliyi verib".

Hərbi and içdiyi günü həyatının unudulmayacaq hadisəsi adlandıran əsgər deyir ki, Vətən sevgisi heç nə ilə müqayisə edilməz. "Bu sevgini mən də daim əməllərimlə, gördüyüm işlərlə sübut edəcəm...".

Əsgər İbrahim Məmmədov müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarında qalaraq Vətənimizə şərəflə xidmət etmək arzusunu da bizimlə bölüşdü: "Sonrakı həyatında da şanlı ordumuzun sıralarında Vətənə xidmət yaşam amalımdı".

Əsgər Vətəni qoruya-qoruya hiss edir ki, Vətənin bir parçasıdır. Bu günün əsgərləri sələflərinin yolunu davam etdirir və torpaqlarımızı göz bəbəyi kimi qoruyaraq sabahın əsgərinə müqəddəs əmanət kimi ötürəcək...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmələrin döyüş növbətçiliyinə daxilolma mərasimi keçirilib

*Cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində bölmələrin döyüş növbətçiliyinə daxilolma mərasimi keçirilib.*





Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri döyüş növbətçiliyinə daxil olan bölmələri təbrik edərək tövsiyə və tapşırıqlarını verib.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində ordunun maddi-texniki bazasının gücləndirilməsi, bütün hərbi hissələrin müasir silah və texnika ilə təmin olunması, yeni hərbi hissələrdə və şəhərciklərdə müasir şəraitin yaradılması nəticəsində torpaqlarımızın etibarlı müdafiəsinin təmin edilməsi istiqamətində yüksək nailiyyətlər əldə edildiyini xatırladaraq hərbi qulluqçulara xeyir-dualarını veriblər.

Sonra bölmələrin hazırlığında xüsusi fərqlənmiş hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə təltif ediliblər. Döyüş növbətçiliyinə daxil olan şəxsi heyət nümunəvi xidmət göstərəcəklərini və düşmənə qarşı amansız olacaqlarını bildirib.

Tədbir rayon mədəniyyət evi və dram teatrı kollektivinin iştirakı ilə davam etdirilib. Şəxsi heyətin birgə naharından sonra bölmələr təntənəli surətdə döyüş mövqelərinə yola salınıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə hərbçilərinin birgə təlimləri başlayıb



*Sentyabrın 25-də Tbilisidəki Krtsanisi təlim mərkəzində Azərbaycan, Gürcüstan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrinin iştirakı ilə hərbi təlimlər başlayıb.*

AZƏRTAC xəbər verir ki, "Eternite" şərti adı altında keçirilən təlimin əsas məqsədi enerji, eləcə də irimiqyaslı infrastruktur layihələrinin mühafizəsinin təşkilidir. Bir həftə davam edəcək təlimlərdə hər üç ölkənin hərbçiləri layihələrin mühafizəsi və təhlükəsizlik tədbirlərinin təşkili ilə bağlı fikir mübadiləsi aparacaq, bu sahədə qabaqcıl təcrübəni öyrənəcəklər.

Təlimin açılışında Gürcüstan, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri, Azərbaycanın Gürcüstandakı səfirliyinin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov və müavini mayor Elcan İmamverdiyev iştirak ediblər.

# Siz qalib gələcəksiniz!

**(Əvvəli 1-ci səhifədə)**

...Məhz Azərbaycan Ordusu ona görə güclüdür ki, əsgərinin döyüş ruhu yüksəkdir. Ordumuz silah və texnikası ilə yanaşı, Vətəni üçün canını qurban verməyə hazır olan əsgərləri ilə fərəhlənir. Ordu sıralarında xidmət edən hər bir zabit, gizir, əsgər xalqına, dövlətinə ürəkdən bağlı vətəndaşdır, torpaqlarımızın hər qarışı uğrunda son damla qanına qədər döyüşməyə hazır igidlərdir.

Əsgər Bəhlul Əliyev hərbi xidmətə Saatlı rayonundan çağırılıb. Atıcıdır. "Vətən mərd oğulların çiyinləri üstə yüksələr", - əsgər deyir. - Bir əsgər kimi mən də layiqli xidmət etməyə çalışıram. Ana Vətənim Azərbaycanı çox sevirəm. Vətən sevgisi isti ana qucağından, beşikdən, bizi dünyaya gətirən anamızın dilindən başlanır. Vətən mənim kimi, minlərlə oğula, qıza, yaşlıya, cavana qucaq açır, qoynunda bəsləyir. Vətənə göz dikənləri susdurmaq bu gün bizə tapşırılıb. Vətən bizdən hünər gözləyir. Ana yurdum uğrunda canımdan da keçməyə hazıram.

...Səngərlə irəlilədikcə əsgərin dediyi sözlər mənə Abbas Səhhətin "Vətəni sevməyən insan olmaz, olsa, ol şəxsdə vicdan olmaz"... misralarını xatırladır. Vətən sevgisini söhbətləşdiyim hər bir əsgərin dilindən eşitmək bir daha sübut edir ki, Azərbaycan Ordusunun əsgərləri Vətənini sevir, ona ürəkdən bağlıdır.

...Əsgər Cavad Nağızadə düşmənin daim nəzarətdə olduğunu bildirir. Hərbi xidmətə Biləsuvar rayonundan çağırılıb. Atıcıdır. "Bir gənc kimi sevincliyəm ki, Vətən qarşısında borcumu layiqincə yerinə yetirib ailəmin yanına başıuca qayıdıram. Lakin, xidmətim bitmir, mən hər zaman əsgərəm. Torpaqlarımız işğal altındadır və hərbi xidmətini başa vuran hər gənc kimi mən də döyüş əmri gözləyirəm. Həmin gün Böyük Qələbəmiz uğrunda döyüşə atılacam", - deyir əsgər Nağızadə.

O günə az qalıb, Cavad. Sənin kimi mərd əsgərlərimiz qələbə sevincini yaşadacaq Azərbaycan xalqına. Düşmən sizlərin gözlərində alovlanan nifrət atəşində yanacaq o gün. O gün Mübarizlərin, Fəridlərin, Raqufların, Zəhraların intiqamı alınacaq, üçrəngli bayrağımız Qarabağın hər yerində qürurla dalğalanacaq... Səngərdə əlini sıxdığım igidlərin özləri də, baxışları da belə deyir.



Əsgər Cəmil Abbaslı hərbi xidmətə Lənkəran rayonundan çağırılıb. Vətənə sevgidən söz açır əsgər. "Vətənin müdafiəsinə daim hazır olmaq bizim borcumuzdur", - deyir: - Mən də ailədə, məktəbdə həmişə Vətənə sevgi hissi ilə tərbiyə olunmuşam. Lakin əsgər olmaq, gecəgündüz səngərdə dayanmaq, Vətənə sevginin nə olduğunu daha dərindən öyrədir. Ailən, sevdiklərin rahat yatsın deyə sən gecəni yatmırsan, onları qoruyursan. Həm də tək öz ailəni yox, minlərlə Azərbaycan ailəsini qoruyursan. Xalqının sənə güvəndiyini, arxalandığını duyanda hiss edirsən ki, bunlar bir oğul üçün ən böyük fərəhdir, sevincdir.

...Azərbaycan xalqı sizə güvənir. Bağçaya gedən uşaq da, nəvəsini əzizləyən qoca da - hər kəs sizə minnətdardır. Onlar sizin gücünüzə inanır. İnanır ki, aprel döyüşlərində düşmənə qan udduran ordumuz torpaqlarımızın qalan hissəsini də tezliklə geri qaytaracaq.

Xalqda bu inamı, güvənci hiss etdirən daha bir mərd əsgəri tanıdım. Əsgər Murad İbrahimov hərbi xidmətə Şabran rayonundan çağırılıb. Tuşlayıcıdır. İti və sərt baxışlarında düşmənə nifrət hissi sezilir. Murad "erməni əsgərləri ölmək istəmirlərsə, torpaqlarımızı tərk etsinlər", - deyərək sözə başlayır.

- Əsgəri xidmət keçmək hər bir Azərbaycan gənci kimi mənim də ən böyük arzum olub, - əsgər deyir. - Bu gün çox sevincliyəm ki, arzuma çatmışam, əsgər olmuşam. Həm də ön xətdə, döyüş postundayam. Qürurlanıram ki, düşmən qarşısında qorxmadan dayanmışam. Ali Baş Komandanın döyüş əmri gələn kimi pulemyotumla daş üstə daş qoymaram. Bir nəfər də olsa hədəfimdən yayınmaz. Əgər ölmək istəmirlərsə ata-baba torpaqlarımızı öz xoşlarına tərk etsinlər.

Söhbətimizi yekunlaşdırırıq. Murad döyüş növbəsini əsgər Ayaz Qarayevdən təhvil alır. Araz hərbi xidmətə Nəsimi rayonundan çağırılıb. Bir ilə yaxındır xidmət edən təcrübəli əsgər, postun ərazisində olan şəraitdən danışır. "Gördüyünüz kimi postumuzda hər cür şərait yaradılıb. Heç nədən korluq çəkmirik. Komandirlərimiz də bizə valideyn qayğısı göstərir. Yüksək əhval-ruhiyyədə xidmət edirik. Üzərimizə bircə vəzifə düşür: məsuliyyətli olmaq, döyüş növbəsində ayıq-sayıq dayanmaq. Bu vəzifənin öhdəsindən gəlməyi hər birimiz müqəddəs borc bilirik", - əsgər Qarayev deyir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışlarının birində dediyi, "Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir" sözləri hər bir əsgərimizə, Vətəni canbaşla qoruyan gəncə verilən ən yüksək qiymətdir. Əsgərlərimiz də onlara göstərilən diqqət və qayğıdan fərəhlənir, xidmətdə daha da nümunəvi olmağa çalışırlar. Azərbaycan əsgəri qətiyyətlidir, güclüdür, vətənsevərdir. Hər biri hərbi anda sədaqətlidir, qorxmazdır, mərddir. Xüdahafizləşirəm... Tezliklə onlardan qələbə reportajı hazırlamaq arzusu və inamı ilə!..

Siz qalib gələcəksiniz, Azərbaycan əsgəri!

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", fotolar Namiq PƏNAHOVUNDUR**

# Vətənpərvərlik ölkənin təhlükəsizlik qarantıdır

Cəlil XƏLİLOV,
Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik



Ulu öndər Heydər Əliyevin bir kəlamı unudulan deyil: "Vətənpərvərlik hissi olmayan insanın mənəviyyatı yoxdur". Vətənpərvərlik insanı formalaşdıran, doğma yurda, mənəvi dəyərlərə sevginin təzahürüdür. Məşhur amerikalı siyasətçi Edlay Stivensonun vətənpərvərlik "sadəcə emosiyaların partlayışı deyil, insanın bütün həyatı boyunca davam edən sakit və möhkəm sadiqlik hissidir" fikri ilə razılaşmamaq mümkün deyil.

Vətənpərvərin qəlbi Vətəninə məxsusdur, o daim doğma yurdu, insanları, təbiəti haqqında düşünür. Vətənpərvərlik hissləri həm də nəsildən-nəslə ötürülür, milli şüurun səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir, yazarların, şairlərin, bəstəkarların və rəssamların yaratdıqları əsərlərə hopur.

Vətənpərvərlik hissi bütün Azərbaycan ədəbiyyatına da nüfuz etmişdir. Bu həm mənəvi irsə, həm də doğma yurdumuzun heyranedici və cazibədar təbiətinə münasibətdə bu və ya digər şəkildə təzahür edir.

Dahi Səməd Vurğunun xalq himninə çevrilən, son dərəcə tutumlu "Azərbaycan" şeiri qeyri-adi vətənpərvərliyi ilə seçilir:

*...Hankı səmtə, hankı yana*
*Hey uçsam da yuvam sənsən,*
*Elim, günüm, obam sənsən!*

Vətənpərvərlik fərdin sosiallaşmasında, şəxsiyyətin, onun insani keyfiyyətlərinin formalaşmasında əks olunur. Vətənpərvərlik dəyərlərinin bu baxımdan hərtərəfli dəstəklənməsi, onların inkişafına rəvac verilməsi milli mədəniyyətimizin, onun təkrarsızlığının qorunub saxlanmasının mühüm şərtidir.

Vətənpərvərliyin ölkənin təhlükəsizliyi ilə birbaşa əlaqəsi onu ideoloji mübarizənin ciddi diqqət obyektinə çevirmişdir. Bununla əlaqədar olaraq, Azərbaycan vətənpərvərliyinin oturuşmuş qayda və üsullarına qarşı yönəlmiş mümkün xarici diversiyaları daim nəzərə almaq çox böyük əhəmiyyət kəsb edir.

Ermənilərin Rusiya imperiyası tərəfindən İran, Suriya və Türkiyə ərazilərindən ilk növbədə Azərbaycan xanlıqlarının ərazisinə köçürülməsi yaxşı məlumdur və bu barədə kifayət qədər tarixi sübutlar var. İranda səfir vəzifəsində çalışarkən Aleksandr Qriboyedovun çar I Nikolaya və başqa yüksək mənsəbli rus məmurlarına yazdığı məktublarını xatırlamaq kifayətdir. Bu məktublar, əslində, on minlərlə erməni ailəsinin İrəvan və Qarabağ xanlıqlarının ərazisinə köçürülməsi barədə özünəməxsus bir hesabat idi...

Azərbaycanda vətənpərvərlik tərbiyəsi müasir dövrdə bir sıra ölkələrdə dirçələn faşizm ideologiyasına müqabil aparılır. Biz insanlığa, bəşəriyyətə nifrət hissləri yayan irqçilik ideologiyalarına biganə qala bilmərik. Respublikamızın prinsipial antifaşist mövqeyini nəzərə almaqla, "Müstəqil Dövlətlərin Veteranlarının İctimai Təşkilatları Birliyi" Beynəlxalq ittifaqının qərarı ilə oktyabrda bizim Veteranlar Şurası bazasında sözügedən məsələyə həsr olunmuş irimiqyaslı beynəlxalq konfrans keçiriləcək. Onlarla dövlətin nümayəndəsi bu məqsədlə Bakıda toplaşacaq və "Faşizm niyə təkrar olunur?" və "Bu dəhşətli bəlanın qarşısını necə almaq olar?" suallarına cavab tapmağa çalışacaq...

# "Anaların arzusunun əsgəriyik"



*Ana övladını böyüdüb boya-başa çatdırır. Gələcək həyat yolunun müəyyənləşməsində də ananın rolu əvəzsizdir. Biz ilk tərbiyəni ondan alırıq. Anaların öyüd-nəsihətləri dünyagörüşümüzün formalaşmasında mühüm rol oynayır. Vətən sevgisini bizlərdə uşaq yaşlarımızdan formalaşdıran da anadır.*

Ana bizləri böyüdür ki, bizi anamız kimi qoynuna alan, anamız bildiyimiz, ana dediyimiz Vətənimizin keşiyində dayanaq.

Ruhumuzun qidası olan Vətənimizi qoruyan, oğullarımızın əhatəsində onlara xidmət edən ana və bacılarımızı görmək bizə könül xoşluğu verir. Hərbi hissələrin yeməkxanalarında, camaşırxanalarında çalışan qadın mülki və hərbi qulluqçularımız Vətənin keşiyində dayanan mərd oğullarımıza ana qayğısını əsirgəmirlər.

Ön xətdə yerləşən "N" hərbi hissəsinin artilleriya divizionunun yeməkxanasında bizi müşayiət edən yeməkxana növbətçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Şirxan Aydınlı hazırlanan yeməklər barəsində qısaca məlumat verdi. Standartlara uyğun əsgər yeməkxanası ilə ilk tanışlıqdan əmin olduq ki, burada səliqə-sahman, əsgərlərin gündəlik qidalanması lazımi səviyyədədir. Xüsusi geyim forması ilə diqqəti çəkən qadın mülki qulluqçulardan birinə yaxınlaşdıq.



- Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən qəlbi Vətən sevgisi ilə döyünən oğullarımıza qayğı göstərmək borcumuzdur, - deyə 2 ilə yaxındır ön xətdə yerləşən hərbi hissədə aşpaz kimi çalışan Sara Ələkbərova söhbətə başladı. Hazırladığımız yemək çeşidlərinin hamısı milli mətbəximizdəndir. Səhər, nahar və şam yeməkləri ayrı-ayrı menyulara uyğun olaraq hazırlanır. Qida rasionuna süd, bal, yağ, cəm, ət, kartof, düyü, qarabaşaq, balıq, şirniyyat növləri, təbii meyvə şirələri və s. daxildir. Biz hazırladığımız yeməklərə ana şəfqəti, ana sevgisi qatırıq ki, onlar əsgər balalarımızın analarının bişirdiyi yeməklərdən fərqlənməsin.

Aşpaz Raisə Qarayeva həmkarının fikirlərini təsdiqləyərək bildirdi ki, o da anadır, bir oğlu var. Mənəvi olaraq yüzlərlə, minlərlə oğulun anasıdır. "Burada işlədiyim müddətdə çalışmışam bişirdiyim yeməklər əsgərlərimizin ürəyincə olsun, şadam ki, ona da nail ola bilirik. Onlardan ana kimi bir istəyimiz, bir gözləntimiz var. Vətən torpağının keşiyində hər zaman şərəflə dayansınlar. Oğullarımızın hünəri, şücaəti xalqımız üçün fəxr və qürura çevrilsin. Qoy, Azərbaycan Ordusunun qarşısında duran vəzifələr tezliklə gerçəkləşsin. Azərbaycan əsgəri gündəlik tapşırıqları yerinə yetirməklə torpaqlarımızı işğaldan azad etməyə hazır olsun..."

Bu fikirləri bütün anaların arzusu hesab edirəm. Böyük ümidlə, inamla deyirəm ki, tezliklə Qələbə xəbəri eşidəcəksiniz. Əsgərlərimiz anaların arzusunun əsgəridi.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Yaponiya KXDR-dən qorunmaq üçün ABŞ-ın raketdənmüdafiə komplekslərini yerləşdirməyi planlaşdırır



Yaponiya hökuməti ABŞ-ın "Aegis Ashore" raketdənmüdafiə komplekslərini ölkənin qərb sahillərində, Yapon dənizi istiqamətində yerləşdirməyi planlaşdırır.

Bu barədə sentyabrın 24-də "Asahi Şimbun" qəzeti məlumat yayıb. Nəşrin məlumatına görə, komplekslərin yerləşdirilməsi 2023-cü ildə başa çatdırılacaq.

Yaponiya hökuməti hazırda "Aegis Ashore" raketdənmüdafiə komplekslərini almağın mümkünlüyünü araşdırır. Koreya yarımadasında vəziyyətin gərginləşməsi ilə əlaqədar Müdafiə Nazirliyi növbəti maliyyə ili üçün rekord miqdarda büdcə sorğusu göndərib. Həmin vəsaitin bir hissəsinin bu komplekslərin alınması üçün sərf ediləcəyi güman olunur. Mütəxəssislərin qənaətinə görə, Yaponiyanın bütün ərazisini mümkün raket zərbəsindən və ya ballistik raketin düşməsindən qorumaq üçün iki belə qurğu kifayət edər. Onun birinin qiymətinin 80 milyard yen (təqribən 728 milyon dollar) olduğu bildirilir.

### İstanbul polisi İŞİD-lə əlaqədə şübhəli bilinən 30-dan çox əcnəbini həbs edib



İstanbul polisi İŞİD terror qruplaşması ilə əlaqədə şübhəli bilinən 36 nəfəri həbs edib.

Saxlanılanların 31 nəfəri digər dövlətlərin vətəndaşlarıdır. Bununla belə, onların milli mənsubiyyəti açıqlanmır.

Yerli polis orqanlarının əməkdaşları şənbə günü antiterror əməliyyatları çərçivəsində İstanbuldakı 15 binada axtarış aparıblar. Həbs olunanlardan bir neçəsinin Suriya və İraqda İŞİD silahlıları tərəfdə vuruşduqları güman edilir. Axtarış zamanı, həmçinin təşkilata aid çox sayda sənəd və elektron avadanlıq ələ keçirilib.

Saxlanılan şübhəlilərlə bağlı araşdırmalar davam edir.

### Talibançılarla İŞİD üzvləri arasında toqquşma olub



Əfqanıstanda "Taliban" hərəkatının silahlıları ilə İŞİD üzvləri arasında toqquşma baş verib.

Hadisə nəticəsində İŞİD-in 4, "Taliban"ın 11 üzvü həlak olub.

Qruplaşmaların heç biri hələ ki, hadisə ilə bağlı açıqlama verməyib.

### Dünyanın ən böyük təyyarəsi kosmosa raketlər göndərəcək



Dünyanın ən böyük təyyarəsi sayəsində artıq raketlər kosmosa yerdən deyil, havadan göndəriləcək.

Hava limanlarında heç vaxt rast gəlmədiyimiz qeyri-adi nəhəng təyyarə üç raketi eyni vaxtda daşıya biləcək.

Təyyarə il ərzində 6-10 dəfə uçuş edəcək və kosmosa göndəriləcək raketləri təxminən 11 min metrə qədər yüksəyə qaldıracaq. 650 ton yük daşımaq gücü olan təyyarənin ilk uçuşunun 2019-cu ildə həyata keçirilməsi nəzərdə tutulur.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Hərbçilərimizin dünya çempionatında yarışları yekunlaşıb

*Sentyabrın 24-də Litvanın Klaypeda şəhərində keçirilən hərbçilər arasında güləş üzrə 32-ci dünya çempionatında Azərbaycan idmançıları 2 gümüş və 1 bürünc medal qazanıblar.*



AZƏRTAC xəbər verir ki, bununla da Azərbaycan milli komandasının aktivindəki medalların sayı 10-a çatıb.

Bu gün, həmçinin yarışların bağlanış mərasimi də olub.

Mərasimdə Litvanın dövlət və hökumət rəsmiləri, Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təmsilçisi Əbdul Rahim Bello və CISM-in Qafqaz, Qara dəniz və Balkan regionu üzrə əlaqələndiricisi, ehtiyatda olan polkovnik Nevzat Varol və iştirakçı ölkələrin nümayəndə heyətləri iştirak ediblər.

Çıxış edənlər qalib idmançıları təbrik ediblər.

Xatırladaq ki, Azərbaycanın Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandasının da qatıldığı hərbçilərin güləş üzrə 32-ci dünya çempionatında 22 ölkədən 320-yə yaxın idmançı iştirak edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev, sərbəst güləş üzrə komandamızın rəhbəri Nazim Əlicanov, yunan-Roma güləşi üzrə komandamızın rəhbəri isə Taleh İsrafilovdur. Azərbaycan nümayəndə heyətinin tərkibinə, həmçinin beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Tural Əliyev də daxil olub.

Qeyd edək ki, sərbəst güləş üzrə yığmamız komanda hesabında dünya çempionatında 3-cü yerə çıxıb və kuboka layiq görülüb.

## Hərbi ənənələr, yeniliklər

# "Zamvolt" gəmisi



ABŞ Hərbi Dəniz Donanmasının əsas vəzifələrindən biri də Dünya okeanı sahillərində düşmənin sualtı qayıqları ilə mübarizə aparmaq üçün müasir gəmilərin hazırlanmasıdır. Onlardan biri də çoxməqsədli "Zamvolt"dur. XXI əsrin esmini sayılan bu gəmi gələcəyin ən iri gəmisi - DD-21-in layihəsi əsasında işlənilib və keçən əsrin 90-cı illərində ABŞ-da istehsal edilib. Bu çoxməqsədli gəmi ilk növbədə sahilyanı ərazilərdə mühüm tapşırıqları yerinə yetirəcək. Yəni, ondan dəniz piyadaları hissələrinə və yerüstü qüvvələrə atəş dayağı durmaq, hava hücumundan və raketləyihinə müdafiə zamanı mülki əhalinin təxliyə edilməsində və digər strateji sahələrdə istifadə ediləcək.

Verilən məlumata əsasən, bu gəmilər döyüş sırasına qəbul edildikdən sonra dünyada ən keyfiyyətli döyüş gəmilərindən biri olacaq. "Zamvolt" gəmisi müasir radioelektron kəşfiyyat vasitələri üçün müəyyən dərəcədə görünməz olacaq, onun yeganə gəmi kompüter şəbəkəsi esminin bütün xətləri və sistemləri ilə əlaqə saxlayacaq, hansı ki, gəmini, silahları, texniki xidməti idarə edəcək. DDG-1000 esmini "açıq arxitektura" prinsipi üzrə layihələndirilib. Gəminin inteqrasiya sistemi, sonradan avtomatlaşdırılmış idarəetmə sistemi şəxsi heyətin 148 nəfərə qədər ixtisar edilməsinə gətirib çıxarıb.

"Zamvolt" iki ədəd 155 mm-lik bir lüləli artilleriya qurğusu ilə təchiz edilib. Hərəkətsiz yerüstü hədəflərə qarşı atəş uzaqlığı 83 dəniz milidir (154 kilometrə qədər). Atəş sürəti dəqiqədə 10 atışdır. Avtomat təchizatla isə döyüş dəsti 920 atış, ondan 600-ü təchizat avtomatındadır. Gəminin hərtərəfli maskalanması düşmən ərazisində yerləşən infrastrukturu və hərbi obyektləri tez bir vaxtda məhv etməyə imkan verir. Bu obyektlərə liman tikililəri, hərbi-dəniz bazaları, güclü istehkamlar daxildir. Bundan başqa gəmi müxtəlif növ pulemyotlar, rakertlər, artilleriya qurğuları ilə də silahlanıb. "Zamvolt"da TSCE-I döyüş informasiya-idarəetmə sistemi də quraşdırılıb.

DDG-1000 "Zamvolt"un subasımı 14564 tondur. Gəmidə fazalı, antena çərçivəli radiolokasiya sistemi quraşdırılacaq ki, onun vasitəsilə esmin ətrafında 360 dərəcə azimut diapazonunda suüstü və hava sahəsini müəyyən edəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistanın hərbi-siyasi rəhbərliyi ordudakı neqativ halların baş verməsində maraqlıdır

## İki erməni əsgəri güllələnib

Hər dəfə Azərbaycan ilə Ermənistan arasında Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində müəyyən konsensusun əldə edilməsi gündəmə gələndə Ermənistan tərəfi müxtəlif hadisələr törətməklə ölkə və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa çalışır. Bu dəfə də belə oldu.

İşğal olunmuş torpaqların tapşırıqlarına əsasən hərbi hissə komandirləri tərəfindən təşkil olunduğu barədə məlumatlarının yer alması dır. Təbii ki, bu məsələlərdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin marağının olması və bundan şəxsi və siyasi məqsədlər üçün istifadə olunması iyrəncdir və heç şübhəsiz, bu xislət Ermənistandan başqa dünyanın heç



bir hissəsinin Azərbaycana qaytarılması ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi fonunda Ermənistan ordusunda növbəti bədbəxt hadisənin baş verməsi buna bir daha sübutdur. Nəticə isə məlumdur, Ermənistanın hərbi-siyasi rəhbərliyi ordudakı neqativ halların baş verməsində bilavasitə maraqlıdır.

Son zamanlar Ermənistan ordusunda neqativ halların durmadan artması sirr deyil və bu barədə məlumatlar erməni sosial mediasında əsas müzakirə edilən mövzulardandır. Diqqəti cəlb edən məqamlardan biri isə erməni sosial şəbəkə istifadəçilərinin Ermənistan silahlı qüvvələrində baş verən bir çox hadisələrin ölkə rəhbərliyi və yuxarı komandanlığın bir ölkəsinə xas deyil.

Erməni sosial mediasında hiddətlə müzakirə olunan növbəti məsələ Laura adlı "Facebook" istifadəçisinin qohumunun ağır yaralanması barədə etdiyi paylaşımdır. Onun sözlərinə görə, Madagizdə yerləşən hərbi hissədə xidmət edən qohumu Narek Zarqaryanla digər hərbi qulluqçu Yura Hakopyan döyüş postunda olan zaman post komandiri tərəfindən təhqirlərə və alçaldıcı hərəkətlərə məruz qalıblar. Komandirin bu hərəkətlərinə etiraz edən hərbi qulluqçular güllələnərək ağır bədən xəsarəti ilə hospitala təxliyə ediliblər. Hazırda hər ikisinin vəziyyəti ağırdır.

**Rəşad MƏMMƏDOV,**
**Müdafiə Nazirliyi**
**Mətbuat Xidmətinin**
**əməkdaşı**

# İdman

## Azərbaycanlı atlet Avropa rekordunu yeniləyərək qitə birinciliyinin qalibi olub



Kosovonun paytaxtı Priştinada 15 və 17 yaşlı yeniyetmə ağır atletlər arasında Avropa birinciliyində idmançımız Rüstəm Qasımov birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib. Turnirdə 56 kiloqram çəki dərəcəsində mübarizə aparan R.Qasımov ardıcıl olaraq 92, 96 və 100 kiloqramı ram edərək bu hərəkət üzrə Avropanın ən yaxşısı olub.

İdmançımız 100 kiloqramı başı üzərinə birdən qaldırma hərəkətində türkiyəli Toptaş Canerə məxsus olan Avropa rekordunu (99 kiloqram) yeniləməyi bacarıb.

R.Qasımov təkanla qaldırma hərəkətində də uğurla çıxış edib. O, 112, 118 və 121 kiloqramı başı üzərinə qaldırmaqla bu hərəkətdə də Avropada hamıdan güclü olduğunu sübut edib.

Ümumilikdə 221 kiloqram (100+121) nəticə əldə edən R.Qasımov yeniyetmələr arasında Avropa çempionu olub.

## Azərbaycan cüdoçuları Serbiyadakı Avropa açıq çempionatında üç bürünc medal qazanıblar



Serbiyanın paytaxtı Belqradda cüdo üzrə Avropa açıq çempionatına start verilib.

Yarışın birinci günündə Azərbaycan milli komandası aktivinə üç medal yazdırıb. Beynəlxalq turnirdə ölkəmizi təmsil edən Elbrus Zamanov (60 kq), Telman Vəliyev (73 kq) və Gültac Məmmədəliyeva (48 kq) bürünc medallara sahib olublar.

Otuz ölkədən 240 cüdoçunun (157 oğlan, 83 qız) mübarizə apardığı turnirdə Azərbaycan milli komandası 17 idmançı (13 oğlan, 4 qız) ilə təmsil olunur.

## Azərbaycan Premyer Liqasının altıncı turuna yekun vurulub



Azərbaycan Premyer Liqasının altıncı turuna "Qəbələ" - "Neftçi" oyunu ilə yekun vurulub.

Görüşün dördüncü dəqiqəsində "Qəbələ"nin oyunçusu Stiven Jozef Monroz hesabı açıb. Oyunun 40-cı dəqiqəsində Baqali Dabo meydan sahiblərinin ikinci qolunu vurub - 2:0. İlk hissə bu hesabla da yekunlaşıb.

Matçın ikinci hissəsində "Neftçi" klubu istəyinə nail olub. Oyunun 48-ci dəqiqəsində paytaxt təmsilçiləri Namiq Ələsgərovun vurduğu qolla hesab arasındakı fərqi minimuma endirib. Oyunda başqa qol vurulmayıb. Görüş "Qəbələ"nin 2:1 hesablı qələbəsi ilə başa çatıb.

## Azərbaycan taekvondoçusu Mərakeşdə Qran-Pri turnirində bürünc medala layiq görülüb



Mərakeşin paytaxtı Rabatda taekvondo üzrə Qran-Pri turnirinin ikinci mərhələsi başa çatıb.

G4 kateqoriyalı beynəlxalq yarışda böyüklərdən ibarət Azərbaycan milli komandasının üzvü Milad Beigi Hərçəqani (80 kq) yarımfinalda misirli Seif Essaya uduzaraq bürünc medalla kifayətlənməli olub.

Ayxan Tağızadə və Məhəmməd Məmmədov (hər ikisi 68 kq) isə yarımfinala vəsiqə uğrunda qarşılaşmalarda məğlubiyyətə uğrayıblar.

Yarışda qalib gələn idmançı aktivinə 40, ikinci yerin sahibi 24, üçüncü yerə çıxanlar isə 14,4 reytinq xalı əlavə edir.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 375
Nüsxə 4600